# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2014-cü ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

**(Əvvəli 2-ci səhifədə).**

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

İl ərzində bütün növ istehlakçı qruplar tərəfindən 101.174,6 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 6.070,5 min manata qarşı 5.815,8 min manat vəsait toplanaraq illik yığım planı 95,8 faiz yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 71,3 faiz, dövlət müəssisələri üzrə 77,7 faiz, ticarət xidməti üzrə 90,4 faiz, özəl sənaye üzrə 99,5 faiz, əhali qrupu üzrə isə 92,6 faiz olmuşdur. İl ərzində 35 ədəd 10/0,4 kV-luq transformator yarımstansiyası cari təmir edilmiş, 10/0,4 kV-luq hava xəttinin 19 km məsafəsində 71,4 min manat, 0,4 kV-luq hava xəttinin 10 km məsafəsində 34,3 min manat dəyərində əsaslı və cari təmir işləri görülmüşdür.



**Bizim ümumi məqsədimiz ondan ibarətdir ki, Azərbaycanı hərtərəfli şəkildə inkişaf etdirək, müasir dövlətə çevirək, dünyada mövcud olan bütün mütərəqqi təcrübəni tətbiq edək, insanların bütün azadlıqlarını təmin edək, hüquqi dövlət quruculuğu işində daha böyük addımlar ataq. Ancaq bu halda Azərbaycan uzunmüddətli və dayanıqlı inkişaf imkanlarını tam şəkildə ortaya qoya bilər.**

**İlham ƏLİYEV.**





**«Qafqaz Yengicə Termal Hotel və SPA» kompleksinin açılışında.**

Təbii qaz istehlakçıları tərəfindən 36.262,3 min kub/metr təbii qaz istehlak edilmiş, 3.926,2 min manata qarşı 3.807,6 min manat vəsait toplanaraq ümumi yığım məbləği 97 faiz təşkil etmişdir. Həmin göstərici əhali sektoru üzrə 98,7 faiz, büdcə təşkilatları üzrə 94,3 faiz, sənaye, kommersiya və digər təşkilatlar üzrə isə 95,9 faiz təşkil etmişdir. İl ərzində 531 yeni abonentə təbii qaz verilərək, əhali üzrə abonentlərin ümumi sayı 11.846-ya çatdırılmışdır.

Azərbaycan hökuməti və Dünya bankının maliyyə dəstəyi əsasında Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində 1-ci mərhələ üzrə işlər tamamlanmış, 2-ci mərhələ üzrə tikinti işləri davam etdirilmişdir. "Qaraçay", "Duruca" su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin küçələrində aparılan abadlıq işləri ilə əlaqədar mövcud su təchizatı və kanalizasiya xətlərində müxtəlif diametrli borular dəyişdirilmiş, təmirbərpa işləri aparılmışdır. Hərbi şəhərcikdə, qaçqın şəhərçiyində, Aydınqışlaq kəndində və 5 mərtəbəli yaşayış binalarının qarşısındakı artezian quyularında nasoslar dəyişdirilmiş, Elçin Kərimov küçəsində bir ədəd subartezian quyusu qazılmışdır. İl ərzində 268,8 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 94 faizi yığılmışdır. Bu göstərici əhali sektoru üzrə 91 faiz, büdcə üzrə 100 faiz, kommersiya və digər təşkilatlar üzrə 95 faiz təşkil etmişdir.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, daşqın və selə qarşı mübarizə məqsədilə 1.115 min kubmetr çay məcrası daş və qumdan təmizlənmiş, 320 kubmetr qabion bəndi vurulmuş, 6326 kubmetr daş bəton bənd və kənd təsərrüfatının suvarma kanalları cari təmir edilmişdir. İstifadəçilərdən 15,8 min manat su pulu yığılaraq tapşırığa 100 faiz əməl edilmişdir.

Qəbələ rayon 11 saylı Yol İstismar İdarəsi tərəfindən 2014-cü ildə 556,8 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya Qovşağı il ərzində 1.220 min manat tarif gəliri proqnozuna qarşı 1.232,4 min manat gəlir əldə etmiş, proqnoz tapşırığa 101 faiz əməl etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,3 faiz, yeni 154,3 min manat artıq gəlir əldə edilmişdir.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 2014-cü il ərzində 220,9 min manata qarşı 225,9 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 102 faiz yerinə yetirmişdir.

Qəbələ Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində hal-hazırda 3.464 hərəkətdə olan sosial müavinət və təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 248,3 min manat təşkil edir. İl ərzində 123 nəfər 18 yaşadək əlil uşağa, 204 nəfər I, II və III qrup əlillərə, 27 ailənin 51 uşağına ailə başçısını itirməyə, 11 nəfərə qocalığa görə aylıq müavinət təyinatı aparılmışdır. Bundan başqa 1.402 ailəyə yeni uşağın anadan olmasına görə, 40 nəfərə dəfn üçün birdəfəlik müavinətlər ödənmişdir. 705 ailəyə ünvanlı sosial yardım təyin olunmuş, həmin ailələrdən 1 yaşadək uşağı olan 53 ailənin 56 uşağına müavinət təyin edilmişdir. Hazırda mərkəzdə 705 hərəkətdə olan ünvanlı sosial yardım işi vardır.

Dövlət Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsi tərəfindən 2014-cü ilin yekununa görə gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 7316 min manata qarşı 7.282,4 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, proqnoz tapşırığa 99,5 faiz əməl olunmuşdur.

**(Ardı 4-cü səhifədə).**